

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 64 (21.725)

6 aprel 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səudu qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Estoniya Respublikasının dövlət idarəçilik naziri, Azərbaycan-Estoniya Hökumətlərarası Komissiyasının sədri Mixail Korbun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Aprelin 5-də Daş Salnamə Muzeyində "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə start verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva, ailə üzvləri, Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səud mərasimdə iştirak ediblər.

Mərasim Azərbaycan rəqsinin ifası ilə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış edib.



## Muxtar respublikaya gələn turistlərin sayı artıb

***Muxtar respublikada son illər iqtisadi və sosial sahələrdə məqsədyönlü tədbirlər həyata keçirilib. Əhalinin səmərəli məşğulluğunun təmin edilməsində mühüm əhəmiyyəti və ən əsası iqtisadiyyatın yüksək gəlirli sahəsi olan turizmin inkişafı üzrə də məqsədyönlü işlər görülüb.***

Muxtar respublikada qədim dövrlərin yadigarı olan tarixi abidələr – Möminə xatın, Qarabağlar, Yusif Küseyir oğlu və Gülüstan türbələri, əsrlərdən bəri qorunub saxlanılan tarixi yaddaşı özündə əks etdirən qədim insanların ilk məskunlaşdığı yaşayış yeri Gəmiqaya, xalqımızın məğlubedilməzliyinin simvolu olan Əlincəqala, möhtəşəmliyi ilə seçilən Haçadağ, misilsiz təbiət abidələrindən Göygöl, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi və yüzlərlə digər sənət əsərləri Naxçıvan diyarının əsas turizm ehtiyatıdır. Muxtar respublikanın əlverişli coğrafi mövqeyi, flora və faunasının müxtəlifliyi, mədəni-tarixi irsi, zəngin milli mətbəxi, qonaqpərvərlik ənənələri turizmin inkişafı üçün böyük perspektivlər açıb.

Tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli Sərəncamı muxtar respublikada abidələrin yenidən və əsaslı şəkildə tədqiq edilməsində, öyrənilməsində və siyahıya alınmasında, bərpa edilərək gələcək nəsillərə çatdırılmasında müstəsna rol oynayıb. Muxtar respublikada geniş vüsət almış tikinti-quruculuq işləri, bütün sahələrdə infrastrukturun yenilənməsi, müasir avtomobil yollarının salınması və digər bu kimi mühüm tədbirlər bütün yaşayış məntəqələrini müasirliyə qovuşdurmaqla yanaşı, turizmin inkişafına da geniş imkanlar yaradıb. Muxtar respublikada beynəlxalq standartlara cavab verən mehmanxanalar, müasir əyləncə və iaşə obyektləri, Ağbulaq İstirahət Mərkəzi tikilib, Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası müasir tələblər səviyyəsində yenidən qurulub, yeni turizm marşrutları istifadəyə verilib.

Naxçıvan Turizm İnformasiya Mərkəzinin yaradılması, Naxçıvan Dövlət Universitetində və "Naxçıvan" Universitetində Turizm və otelçilik ixtisaslarının açılması, İran İslam Respublikası və Türkiyə Respublikası ilə sərhəd-keçid rejiminin sadələşdirilməsi, yeni beynəlxalq marşrutların təşkili turizmin inkişafına əlverişli şərait yaradıb.

Bütün sahələrdə qeydə alınmış dinamik inkişafla yanaşı, muxtar respublikanın təhlükəsiz region kimi tanınması da buraya gələn turistlərin sayının artmasına müsbət təsir göstərib.

Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı 2016-cı ildə keçirilmiş müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Sabitlik, iqtisadi inkişaf, zəngin tarixi-mədəni irs, ekoloji cəhətdən təmiz qida məhsulları və yaradılan şərait Naxçıvanda turizmin inkişafını şərtləndirən əsas amillərdir. Muxtar respublikanın turizm potensialı bura səfər edən xarici ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirilir..."***

Aparılmış məqsədyönlü tədbirlərin nəticəsidir ki, 1995-ci ildə muxtar respublikaya 38,6 min nəfər turist gəlmişdisə, bu göstərici 2006-cı ildə 93,9 min nəfər, 2010-cu ildə 287,6 min nəfər, 2016-cı ildə 403,3 min nəfər olub. 2016-cı ildə muxtar respublikaya gələn turistlərin sayı 1995-ci illə müqayisədə 10,4 dəfə artıb. Cari ilin ilk rübü ərzində muxtar respublikaya gələn turistlərin sayı bir il öncəyə nisbətdə 5,1 faiz artaraq 98,8 min nəfər təşkil edib.

Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı elan olunması muxtar respublika haqqında dolğun məlumatların dünya ictimaiyyətinə çatdırılmasına, turizmin inkişafına geniş imkanlar yaradacaqdır.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

## İşaxtaran vətəndaşların işlə təmin edilməsi üçün aprelin 11-də növbəti əmək yarmarkalarına start veriləcək

***Hər bir ölkənin iqtisadiyyatının gücləndirilməsində, bunun məntiqi nəticəsi olaraq insanların maddi rifah halının yaxşılaşdırılmasında, onların həyat səviyyəsinin yüksəldilməsində əhalinin məşğulluğunun təmin edilməsi başlıca amillərdən biridir. Ona görə də son illərdə bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsi prioritet vəzifəyə çevrilib. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyasının bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi bunun ifadəsidir. Muxtar respublikamızda da həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin uğurla icra edilməsi muxtar respublika sakinləri tərəfindən insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına qayğı kimi dəyərləndirilir. Ötən dövr ərzində işaxtaran vətəndaşların münasib işlə təmin edilməsi, onların haqqıödənilən ictimai işlərə cəlb olunması, habelə peşə hazırlığı sahəsində muxtar respublikada görülən işlər bir daha onu göstərir ki, blokada şəraitində də istənilən problemin həllinə nail olmaq mümkündür. İndi regionda əhalinin məşğulluğunun təmin edilməsində ən çevik yol olan əmək yarmarkalarından geniş istifadə edilir. Məşğulluq orqanları bu işdə mühüm rol oynayırlar. İşəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır, bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, muxtar respublikada 2016-cı ildə şəhər və rayonlarımızın hər birində əmək yarmarkaları keçirilib. Bundan başqa, təhsil və səhiyyə yarmarkaları da təşkil olunub.

Məlumat üçün onu da bildirək ki, cari ildə növbəti əmək yarmarkalarına aprelin 11-də start veriləcək. Həmin gün tədbir Sədərək rayonunun Heydərabad qəsəbə mərkəzində təşkil olunacaq. Aprel ayının 12-də Kəngərli Rayon Məşğulluq Mərkəzində bu bölgənin işaxtaran sakinlərinə boş iş yerləri təqdim ediləcək. Aprelin 13-də keçiriləcək əmək yarmarkasının növbəti ünvanı Şahbuz şəhərindəki "Araz" kinoteatrının binası olacaq. Culfa rayonunun işaxtaran sakinləri bu dövlət qayğısından aprel ayının 14-də yararlana biləcəklər. Aprel ayının 18-də ordubadlılara, 19-da babəklilərə, 20-də isə şərurlulara boş iş yerləri təqdim olunacaq.

Naxçıvan şəhərində əmək yarmarkası aprel ayının 21-də "Gənclik" Mərkəzində keçiriləcək.

✍ **Muxtar MƏMMƏDOV**

## Şərur rayonunda quruculuq işləri davam etdirilir

***Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda ötən illərdə xeyli quruculuq işləri həyata keçirilib. Belə ki, yeni məktəb, səhiyyə, mədəniyyət, kənd və xidmət mərkəzləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Bütün bunlar həmin ünvanlarda olan sosial problemləri aradan qaldırıb, rayon mərkəzi Şərur şəhəri və bölgənin kənd yaşayış məntəqələrinin böyük əksəriyyəti müasirlik libasına bürünüb.***



Belə tədbirlər ötən il və bu ilin ilk rübü ərzində də davam etdirilib. 2016-cı ildə Şərur şəhərindəki Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün tədris və yataqxana korpusları, rayon mərkəzinin Heydər Əliyev prospektində hər biri 24 mənzilli olan 46 və 48 nömrəli yaşayış binaları, Arbatan kəndində 234, Oğlanqalada 576 şagird yerlik tam orta məktəb binaları, hər iki yaşayış məntəqəsində kənd və xidmət mərkəzləri, Mahmudkənddə, Aralıq və Aşağı Yaycıda futbol meydançaları, Yengicədə müharibə əlili üçün mənzil tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Xanlıqlar kəndindəki dini ziyarətgah bərpa edilib. 2017-ci ilin birinci rübü ərzində Çəmənlidə məktəb, kənd və xidmət mərkəzləri, Arpaçayda kənd və xidmət mərkəzləri, Şərur şəhərindəki 2 nömrəli tam orta məktəbin binası, rayon Mərkəzi Xəstəxanasının binası təmir olunaraq və ya tikilərək istifadəyə verilib. Hazırda rayonun müxtəlif ünvanlarında kompleks quruculuq işləri davam etdirilir.

Belə tədbirlərdən Ərəbyengicə, Ələkli və Qarahəsənli kəndlərinə də pay düşüb. Bu yaşayış məntəqələrində kompleks quruculuq işlərinə başlanılıb.

Ərəbyengicədə kənd məktəbinin müasir standartlara cavab verməyən köhnə binası sökülür. Yeni tikiləcək bina 192 şagird yerlik və 3 mərtəbədən ibarət olacaq. Binada 13 sinif otağı, elektron lövhəli siniflər, 1 kompüter otağı, 2 laboratoriya, kitabxana, idman zalı və digər otaqlar inşa ediləcək. Kənddə kənd və xidmət mərkəzləri də tikilərək sakinlərin ixtiyarına veriləcək.

Rayonun Ələkli kəndində də kompleks quruculuq işləri aparılır. Kənddə məktəb, kənd mərkəzi və xidmət mərkəzindən əlavə, uşaq musiqi məktəbi üçün də bina tikilir. Uşaq musiqi məktəbinin binası iki, tam orta məktəbin binası isə üçmərtəbəli olacaq. 216 şagird yerlik məktəbdə şagirdlərin təhsili üçün hərtərəfli şərait yaradılacaq.

Kənddə həmçinin digər abadlıq işləri də aparılacaq, kənd və kənddaxili yollar asfaltlanacaq.

Rayonun Qarahəsənli kəndində də kompleks quruculuq işlərinə başlanılıb. Bütün tikinti obyektlərində çalışanların təhlükəsizliyinin təmin edilməsi diqqət mərkəzində saxlanılır. Obyektlərdə həyata keçirilən quruculuq işlərinin keyfiyyətlə aparılmasına ciddi diqqət verilir. Hər üç yaşayış məntəqəsində aparılan inşaat işləri başa çatdıqdan sonra rayonun daha 3 kəndi müasirliyə qovuşacaq.

**Elman MƏMMƏDOV**

***Hər bir ölkənin təhlükəsizliyi onun Silahlı Qüvvələrinin hərtərəfli inkişafından asılıdır. Güclü, nizami ordu bu təhlükəsizliyin qarantı olmaqla yanaşı, həm də sülhün, firavan və rahat yaşayışın təməl prinsiplərindən sayılır. Tarixdən də məlumdur ki, istənilən dövrdə güclü ordusu olan ölkələr daim inkişaf edib, iqtisadi və siyasi qüdrətini artırıb, nüfuz sahibi olub. Ordusu zəif olanlar isə əksinə. Dünyanın qədim xalqlarından olan Azərbaycan xalqının istər uzaq, istərsə də yaxın tarixi keçmişi ərzində baş verən hadisələr ordu quruculuğu işinin bir daha zəruri olduğunu sübut etməkdədir.***

# Əlahiddə Ümumqoşun Ordu düşmənə qarşı istənilən döyüş əməliyyatını yerinə yetirməyə qadirdir



Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğuna bu gün dövlətimiz tərəfindən göstərilən hərtərəfli qayğı bu prosesin yeni mərhələyə qədəm qoymasına şərait yaratmaqla yanaşı, ölkəmizin regionda nüfuzunun artmasına da öz təsirini göstərib. Ordu quruculuğu prosesində ölkə ərazilərinin geostrateji mövqeyi mühüm rol oynayır. Çünki mühüm coğrafi ərazilər təkcə iqtisadi-siyasi deyil, həm də hərbi-strateji əhəmiyyətinə görə seçilir. Buna görə də sülh və müharibə şəraitində ölkənin hava, dəniz və quru sərhədlərinin etibarlı qorunması aidiyyəti ərazilərdə müvafiq qoşun birləşmələrinin dislokasiyasından və döyüş hazırlığından birbaşa asılıdır. Məhz bu baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlər bir çox əhəmiyyətli tərəfləri ilə diqqət çəkir.

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası coğrafi cəhətdən ölkənin əsas torpaqlarından ayrı düşüb. Bu tarixi gerçəkliyin acı nəticələri ilə Naxçıvan keçən əsrin sonlarında çox qarşılaşıb. Ancaq ulu öndər Heydər Əliyevin ötən əsrin doxsanıncı illərinin əvvəllərində Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi bu qədim diyarın qorunub saxlanılmasında böyük rol oynayıb. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanda ilk milli ordu hissələrinin yaradılmasına buradan başlayıb. Məhz həmin dövrdən başlayaraq muxtar respublikada ordu quruculuğu bir çox mərhələlərdən keçib və ötən hər il hərbi hissələr daha da təkmilləşdirilib. 2013-cü ilin dekabrında muxtar respublikada 5-ci Ordu Korpusunun bazasında Əlahiddə Ümumqoşun Ordu yaradılıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən atılan bu tarixi addım Naxçıvanın hərbi gücünün artırılmasında yeni bir mərhələyə çevrilib. Qısa müddət ərzində Əlahiddə Ümumqoşun Ordu müxtəlif təyinatlı müasir döyüş texnikaları ilə təmin olunub, şəxsi heyətin sayı dəfələrlə artırılıb. Bu texnikalara piyada döyüş vasitələrindən tutmuş müasir artilleriya qurğuları və hava hücumundan müdafiə sistemlərinədək müxtəlif növlərdə silahlar daxildir. Güclü maddi-texniki baza muxtar respublikamızın quru sərhədləri ilə bərabər, hava məkanının da mükəmməl mühafizəsinin təmin edilməsinə şərait yaradıb. Eyni zamanda mövcud hərbi hazırlıqlar Əlahiddə Ümumqoşun Ordunun regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə istənilən döyüş əməliyyatlarının koordinasiyasını həyata keçirməyə imkan verib. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyev də siyasi fəaliyyətinin bütün dövrlərində Naxçıvanın təhlükəsizliyini diqqət mərkəzində saxlayır, muxtar respublikanın müdafiə məsələlərinin yüksək səviyyədə həll olunmasına xüsusi əhəmiyyət verir. Ölkə başçısı muxtar respublikaya hər səfərində buradakı hərbi hissələrin vəziyyəti ilə yaxından tanış olur, ordu quruculuğu sahəsində görülən işləri yüksək qiymətləndirir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, Ali Baş Komandan cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hərtərəfli qayğısı sayəsində buradakı hərbi hissələrdə böyük quruculuq tədbirləri həyata keçirilir, zabit və əsgərlər üçün lazımi xidmət şəraiti yaradılır, yeni əsgər yataqxanaları, əsgəri-məişət kompleksləri istifadəyə verilir. Bundan əlavə, hərbi qulluqçuların mənzil-məişət şəraiti yaxşılaşdırılır, onlar yeni mənzillərlə təmin olunur. Xidmətdə fərqlənənlərin isə əməyi layiqincə qiymətləndirilərək mükafatlandırılır. Həyata keçirilən tədbirlər sayəsində muxtar respublikada birləşmə və hissələrin döyüş qabiliyyəti və peşəkarlığı artırılıb, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı xeyli yüksəldilib. Ali Məclis Sədrinin mütəmadi olaraq hərbi hissələrə səfər etməsi, şəxsi heyətlə təmasları hərbçilərimizi ruhlandırmaqla yanaşı, xalq-ordu birliyinin nümunəvi gücünü də ortaya qoyur. Naxçıvanın hərbi gücünün artırılmasının prioritet istiqamət olduğunu bildirən Ali Baş Komandan bu haqda deyib: ***“Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır. Bu gün bu, belədir. Gələcəkdə Naxçıvanın hərbi potensialının gücləndirilməsi üçün əlavə tədbirlər görüləcəkdir. Naxçıvanın hərbi potensialı elə olmalıdır ki, istənilən təcavüzə tutarlı, layiqli cavab verə bilsin. Bu gün bu artıq reallıqdır. Gələcək illərdə görüləcək əlavə tədbirlər hesabına biz Naxçıvanda daha da böyük hərbi potensial yaradacağıq. Buna imkan vardır”.***

Bəli, ordumuzun durmadan artan gücü bu gün düşmənlərimizi də narahat edir. Çünki ölkə başçısının apardığı uğurlu daxili və xarici siyasətin nəticəsində hər keçən gün daha da güclənən ordumuz bu gün qarşıya qoyulmuş istənilən tapşırığı yerinə yetirməyə qadirdir. Silahlı Qüvvələrimizin gücünü 1 il bundan əvvəl baş vermiş aprel döyüşlərində görən düşmən hələ də o qorxudan xilas ola bilməyib. Tarixə dördgünlük müharibə kimi düşən həmin aprel döyüşləri ordumuza öz gücünü göstərməyə şərait yaradıb. Nəticədə, döyüşçülərimizin gücü qarşısında aciz qalan ermənilər sürətlə geri çəkilib, ətraf yaşayış məntəqələrində məskunlaşmış sakinlər kəndləri boşaldıblar və məcburiyyət qarşısında qalan erməni rəhbərliyi acizanə şəkildə atəşkəsin təmin edilməsi üçün müxtəlif qurumlara müraciət edib. Dörd gün ərzində Azərbaycan Silahlı Qüvvələri 2000 hektar ərazini, strateji əhəmiyyət kəsb edən yüksəklikləri geri alıb və cəbhəboyu ərazilərə nəzarət etmək imkanı qazanıb.





Aprel döyüşlərində düşmənin Naxçıvan Muxtar Respublikası istiqamətində hücumlarının ola bilməsi ehtimalı var idi. Ancaq bu, baş vermədi. Hərbi ekspertlərin qeyd etdiyi kimi, bunun müəyyən səbəbləri vardı və bu səbəblər hazırda da öz aktuallığını qoruyur. Birinci səbəb ondan ibarətdir ki, son illərdə ölkəmizdə ordu quruculuğu istiqamətində aparılmış məqsədyönlü tədbirlər, o cümlədən muxtar respublikanın müdafiə təhlükəsizliyinin qarantı kimi yaradılmış Əlahiddə Ümumqoşun Ordu ilk günlərdən düşmənlərimizi narahat edir. Çünki Əlahiddə Ümumqoşun Ordunun yaradılması muxtar respublikadakı hərbi birləşmələrə istənilən anda döyüş tapşırığını yerinə yetirmək imkanını verir. Bunun üçün son dövrlərdə Silahlı Qüvvələrimizin muxtar respublikanın ərazisində yerləşən hərbi birləşmələri ən müasir piyada və raket-artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri ilə təchiz olunub, Naxçıvanın müdafiə potensialı dəfələrlə artırılıb.

Əlahiddə Ümumqoşun Ordu yarandığı dövrdən real döyüş şəraitinə uyğunlaşdırılmış təlimlərə cəlb olunur və hər dəfə bu təlimlərdə qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirir. Əlahiddə Ümumqoşun Ordunun keçirilən təlimlərdə istifadə etdiyi silahların dağıdıcı gücünü hər kəs kimi düşmənlərimiz də yaxşı bilir. Düşmən Naxçıvan Muxtar Respublikasında güclü ordu ilə üz-üzə gəlməyin ağır fəsadlarını da indidən hesablayır. İkinci səbəb isə müasir hava hücumundan müdafiə sistemləri ilə təchiz olunmuş muxtar respublikanın istənilən hücuma tutarlı cavab verməsidir.

İstənilən halda müasir dünyada reallıq budur ki, haqlı olmağın yolu güclü olmaqdan keçir. Və şübhə yoxdur ki, düşmənlərimizi Naxçıvana bu günədək hücum etməkdən çəkindirən əsl səbəb də Silahlı Qüvvələrimizin buradakı gücüdür. İnanırıq ki, ordumuzun bu gücü tezliklə işğal altında olan bütün torpaqlarımızın azad olunmasında öz sözünü deyəcək.

✍ **Səbuhi HƏSƏNOV**

# Gənclərdə milli mənlik şüurunun inkişaf etdirilməsi onların müstəqil dövlətimizə sadiq vətəndaş kimi yetişməsinə zəmin yaradır

*Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə həmişə gəncliyin qüvvəsini, potensialını yüksək qiymətləndirmiş, bu sahəyə daim xüsusi diqqət və qayğı göstərmiş, gənclərin vətənpərvər, fiziki və mənəvi cəhətdən sağlam, hərtərəfli biliyə malik olmaları üçün hər cür şərait yaratmışdır.*

Ümummilli liderimiz gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasını gənclərin tərbiyəsinə cavabdehlik daşıyan bütün qurumların qarşısında ən mühüm vəzifə kimi qoymuş, müxtəlif səviyyəli tədbirlərdə, gənclərlə, müəllimlərlə, ziyalılarla çoxsaylı görüşlərində bu məsələyə dəfələrlə toxunaraq öz müdrik məsləhət, tövsiyə və tapşırıqlarını vermişdir. Ulu öndər demişdir: ***“Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt Vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz”.***

Dahi şəxsiyyət gənclərə həmişə xüsusi diqqət və qayğı göstərmişdir. Onun 1999-cu il iyulun 29-da imzaladığı “Dövlət gənclər siyasəti haqqında” Fərmanı gənclərə göstərdiyi diqqət və qayğının əyani təzahürüdür. Həmin fərmana uyğun olaraq təsdiqlənmiş tədbirlər planında gənclər siyasətinin bütün istiqamətləri öz əksini tapıb. Bu qanun ölkəmizdə gənclərin inkişafında yeni bir mərhələnin başlanğıcını qoyub. Ümummilli liderin müəyyənləşdirdiyi gənclər siyasətinin əsasında Azərbaycançılıq ideologiyasından qaynaqlanan dövlətin inkişafı, xalqımızın rifahının yüksəldilməsi yönündə fəaliyyət və tolerantlığın inkişaf etdirilməsi dayanır.

Dövlət gənclər siyasətinin uğurla davam etdirilməsi müstəqil Azərbaycan Respublikasının daha da qüdrətləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Bunun ifadəsidir ki, bu gün ölkəmizin vətənpərvər gəncləri ictimai həyatın bütün sahələrində öz təşəbbüskarlığı ilə seçilir, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Son illər respublikamızda həyata keçirilən tədbirlər Vətənə sədaqətli gənclərin hərtərəfli inkişafının təmin olunması üçün sosial-iqtisadi, təşkilati-hüquqi şərait və təminatların yaradılmasını sürətləndirib, onların fəallığının artmasına kömək edib.

Cəmiyyət həyatının bütün sahələri kimi gənclərlə birbaşa bağlı dövlət proqramları qəbul olunub və onların icrası nəticəsində dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş verib. Həmin tendensiya son zamanlar daha böyük uğurla davam etdirilir. Gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində davamlı iş aparılıb, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı artırılıb.

Muxtar respublikamızda da gənclərin sağlam, vətənpərvər ruhda böyümələri, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qeyd etdiyi kimi: ***“...Bu gün bizim qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır”.***

Bu gün Vətən uğrunda şəhid olan oğullarımızın xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələri və müharibə iştirakçılarının reabilitasiyası, sosial problemlərinin yerindəcə həlli məsələsi diqqət mərkəzində saxlanılır. Torpaqlarımızın müdafiəsi zamanı şəhid olanların döyüş yolu haqqında materialların toplandığı Xatirə Muzeyi müasir səviyyədə yenidən qurulub. Muxtar respublikamızdan olan Milli qəhrəmanların və şəhidlərimizin döyüş yolu haqqında vaxtaşırı mətbuat və televiziyada materiallar hazırlanır. Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatı da, öz növbəsində, gənclərə qəhrəmanlıq tariximizin və bu tarixi yazanların döyüş yolunun çatdırılmasında fəal iştirak edir. Məktəblərdə, mədəniyyət müəssisələrində, hərbi hissələrdə bu istiqamətdə aidiyyəti qurumlarla birlikdə tədbirlər təşkil olunur. Gənclərin hərbi xidmətə yola salınması və hərbi xidmətlərini başa vurmuş əsgərlərin tərxis olunması mərasimlərində təşkilat yaxından iştirak edir, onlara mənəvi cəhətdən dəstək olur.

Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin Vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarına, ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə diqqətlə yanaşıb və bu gün də elədir. Çünki yuxarıda qeyd olunan bu amillər gənclərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, inam hissini gücləndirir, onları qələbəyə ruhlandırır. Vətənpərvərliyin tərkib hissəsi olan hərbi-vətənpərvərlik tərbiyəsi yeniyetmə və gənclərə doğma Vətəni dərin məhəbbətlə sevməyi öyrədir. Eyni zamanda yeniyetmə və gənclərdə Vətən torpaqlarına göz dikənlərə qarşı amansız olmaq, Vətən uğrunda son damla qanına qədər döyüşmək kimi keyfiyyətlər aşılayır. Hərbi-vətənpərvərlik tərbiyəsi həm də gənc nəsli Vətənə xidmət etməyə səsləyir. Gənclərdə milli mənlik şüurunun inkişaf etdirilməsi isə onların müstəqil dövlətimizə sadiq vətəndaş kimi yetişməsinə zəmin yaradır. Unutmaq olmaz ki, daim Vətənin gələcəyini düşünmək, hərbi bilik və vərdişlərlə yanaşı, mərdlik və qəhrəmanlıq kimi xüsusiyyətlərə yiyələnmək hər bir gəncin müqəddəs vəzifəsidir.

**Mirməcid SEYİDOV**
***Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının sədri***

***Müxtəlif təyinatlı tarix-memarlıq abidələri ilə çox zəngin olan Naxçıvanda orta əsrlər zamanı yaradılan memarlıq nümunələrindən biri də hamamlardır. İslam qanunlarına görə bir insanın girdiyi suya başqa bir insanın girməsi xoş qarşılanmır. İslam şəriətində axar suda yuyunma, paklanma, dəstəmazalma bəyənilir və təqdir olunur. Buna görə də orta əsrlər zamanı digər Şərq ölkələrində olduğu kimi, Azərbaycanın da əksər iri yaşayış məskənlərində hamamlar inşa olunurdu.***

# Şərq memarlığının gözəl nümunəsi – *Yengicə hamamı*



*Yengicə hamamı*



*Yengicə hamamının bərpa layihəsi*

Keçmişdə hamamların funksiyası təkcə insanların yuyunma yeri olmaqla məhdudlaşmırdı. Onlar həm də insanların dincəlmək, söhbət etmək, görüş yerləri idi. Bütün bunları əsas götürərək etnoqraf-alim, tarix üzrə elmlər doktoru Şirin Bünyadova yazır ki, ictimai hamamlar özünəməxsus funksiya (gigiyena, müalicə, mərasimlər keçirilməsi) daşımaqla yanaşı, həmçinin informasiya mübadiləsinin gerçəkləşdiyi görüş yeri kimi də mahiyyət kəsb edirdi. Bir sıra xəstəliklərin (soyuqdəymə, yel və sair) müalicəsində, əsəblərin sakitləşməsində mühüm rol oynayan hamamlar, ümumiyyətlə, insanların, bütövlükdə, cəmiyyətin həyatında xüsusi rola malik idi. Ona görə də orta əsrlər zamanı hamamlar üçün möhtəşəm, memarlıq baxımından çox gözəl binalar inşa edirdilər. Bu iş Səfəvi hökmdarı I Şah Abbasın zamanında xüsusilə geniş miqyas almış, bir sıra şəhərlərdə hamamlar inşa etdirilmişdir. O zaman Azərbaycanın şəhər və kəndlərində də çoxlu hamamlar meydana gəlmişdi. Təkcə Təbriz şəhərində XVII yüzillikdə "Leyli və Məcnun", Kəcilbaşı, Pəsə Kuşək, Boz, Cahanşah kimi çox məşhur hamamlar, Dəvəçilər məhəlləsi, Rey darvazası, Xiyaban məhəlləsi, Surxab məhəlləsi, Öküz bazarı hamamları, çoxlu saray hamamları fəaliyyət göstərirdi. Hamamların tikintisində məscidlərin memarlıq üslubundan istifadə edilir, hətta onlar üçün bir neçə günbəz də qoyulurdu.

Tarixi abidələrin indiyədək qalan nümunələrinə əsasən deyə bilərik ki, Azərbaycanın qədim və iri mədəniyyət mərkəzlərindən olan Naxçıvan da hamamların geniş yayıldığı ərazilərdən olmuşdur. Azərbaycanda, bütünlükdə, Şərqdə olduğu kimi, burada da hamamlar yerüstü və yeraltı olmaqla, əsasən, üç hissədən ibarət idi: 1. Suyun qızdırılması yerləri; 2. Soyunma yerləri; 3. Yuyunma yerləri. Tədqiqatçılar qeyd edirlər ki, Azərbaycan üçün günbəzli, səkkizbucaqlı salonlardan ibarət olan giriş və yuyunma otaqları, kiçik yerləşgələri, yuyunma yerində "xəznə"ləri (soyuq və isti su olan yer), "külxan" adlanan qızdırılma kamerası olan hamamlar xarakterik idi. İnşaat mədəniyyətinin mühüm elementi olan hamamlar dərinlikdə tikilirdi və müxtəlif mərasimlərə xidmət edirdi.

Bizə qədər gəlib çatmış qaynaqlarda Naxçıvanda olan hamamlar haqqında maraqlı məlumatlar vardır. XVII əsr türk səyyahı Övliya Çələbi Naxçıvan şəhəri haqqında bəhs edərkən yazır ki, "Cənabi hamamı son dərəcə gözəl və işıqlıdır. Qapı və divarı şirəli kaşıdan və döşəmələri isə ağ mərmər daşdandır. Hamam mehrabaları şahmat naxışı ilə bəzədilmişdir. Mehmanxanamıza yaxın Zal paşa hamamı vardır. Onun bütün qapı və divarı şirəli kaşılarla örtülmüşdür. Döşəməsi başdan-ayağa boz, sumağı və tünd-qırmızı mərmər daşlardandır. Elə işıqlı hamamdır ki, onun bütün pəncərələri büllurdandır. Həyətin ortasında böyük bir hovuz var. Xülasə, gözəl havası olan bu hamamın tərifi, təmizliyi və gözəlliyini şərh etməkdə qələm belə, acizdir". Ö.Çələbidən bir neçə il sonra, 12 aprel 1673-cü ildə Naxçıvanda olmuş fransız səyyahı Jan Şarden də Naxçıvan şəhərində çoxlu hamamların olduğunu qeyd etmişdir. Təəssüf ki, bu səyyahların Naxçıvan şəhərində gördüyü hamamlardan heç biri günümüzədək gəlib çatmamışdır.

Bununla belə, orta əsrlər zamanı Naxçıvan diyarının müxtəlif yaşayış məskənlərində fəaliyyət göstərmiş bəzi hamamlar yarımuçuq vəziyyətdə olsa da, zəmanəmizədək gəlib çatmışdır. Buna Ordubad rayonunun Üstüpü, Gənzə, Darkənd, Yuxarı Əylis, Vənənd, Şərur rayonunun Yengicə, Kəngərli rayonunun Şahtaxtı və digər kəndlərindəki hamamları misal göstərmək olar. Burada bir cəhəti xüsusi vurğulamaq lazımdır ki, Naxçıvan hamamları da bir sıra Şərq ölkələrindəki hamamlar kimi xarici görünüşcə diqqəti çox cəlb etməsələr də, daxili hissələri çox gözəl olmuş, orada insanların rahatlığını təmin edən hər cür şərait yaradılmışdı.

Naxçıvan ərazisində indiyədək salamat və ya yarımuçuq vəziyyətdə gəlib çatmış hamamların bir xüsusiyyəti də odur ki, bu hamamların bir hissəsi yaşayış məskəninin əsas məscidinin yaxınlığında, bəzi hallarda isə məscidə bitişik şəkildə inşa olunmuşdur. Görünür, bu, məscidə gələnlərin burada yuyunub paklanması və yaxud dəstəmaz alması zərurətindən irəli gəlmişdir.

Orta əsrlər zamanı Naxçıvanın nəinki şəhərlərində, hətta kəndlərində də möhtəşəm hamamlar inşa olunaraq əhalinin istifadəsinə verilmişdir. Tədqiqatçılar Naxçıvan ərazisində inşa edilən hamamları 2 tipə ayırır: birinci tipə sadə planlaşma həlli olan düzbucaqlı, birbiri ilə əlaqədar olan bir neçə otaqlı hamamlar aiddir. Şahtaxtı və Xok hamamları bu tipə aiddir. İkinci tipə giriş otağı səkkizbucaqlı planda tikilmiş hamamlar aiddir. Bu otaq ayrı-ayrı qrup otaqların mərkəzində yerləşir. Naxçıvan şəhərində Şərq hamamı, Ordubad şəhərində, Ordubad rayonunun Vənənd kəndində, Şərur rayonunun Yengicə kəndində tikilən hamamlar bu tipə aiddir.

Yengicə kəndi Şərur rayon mərkəzindən 2 kilometr cənub-qərbdə yerləşir. Qədim və böyük yaşayış məskənlərindəndir. Kəndin yaxınlığında yerləşən orta əsrlərə aid Yengicə yaşayış yerindən əldə olunan maddi-mədəniyyət nümunələri təsdiq edir ki, kənd orta əsrlərdə inkişaf etmiş yaşayış məskənlərindən olmuşdur. Vaxtilə kənddə üstüörtülü çarşı, buzxana və karvansaray fəaliyyət göstərmişdir. Qalıqlarına əsasən demək olar ki, binaların tikintisində tağbənd və günbəzlərdən istifadə edilmişdir. Arxeoloji və etnoqrafik materiallara əsasən XIII-XIX əsrlərə aid edilən və çox böyük sahəni əhatə edən yaşayış yerində sənətkarlara məxsus məhəllələr olmuşdur. Həmin məhəllələrdən biri hazırda əhali arasında "Çölməkçilər məhəlləsi" adı ilə qalmaqdadır.

"Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin elmi katibi Mirbağır Mirheydərzadənin 1928-ci ildə və həmin cəmiyyətin üzvü M.Rəsizadənin 1930-cu ildə verdikləri məlumatlardan aydın olur ki, "həmin vaxt Yengicə kəndində əhali 3 tayfadan ibarət olmuşdur: Talıbxanlı, Sadaxlı, Çəçənni. Kəndin Zərtukən, Dəvəğğuz, Bərə, Heybət arxı, Keçi budağı, Qumnax, Ding arxı, Kərpicli, Qazılı, Cilovxanlı adlı kövşənlərində əhali pambıq, taxıl və çəltik əkməklə məşğul olmuşdur".

Haqqında bəhs olunan hamam kəndin mərkəzində böyük bir ərazini tutan Çarşıbazarın başlanğıcında inşa olunmuşdur. Şərq memarlığı üslubunda inşa edilmiş bu hamam yerli əhalinin fikrincə, XVIII əsrdə əslən Şahtaxtı kəndindən olan Tovuz xanım adlı qadın tərəfindən tikdirilmişdir. Deyilənlərə görə, Tovuz xanım Şərurun daha iki kəndində də hamam tikdiribmiş. Yengicə hamamı müəyyən dağıntılara uğrasa da, zəmanəmizədək qismən salamat vəziyyətdə gəlib çatmışdır. Hamamın ümumi sahəsi 650 kvadratmetr, içərisinin sahəsi 545 kvadratmetrdir. Bina 19x19x5 santimetr ölçüdə bişmiş kərpiclə əhəng məhlulu istifadə olunmaqla tikilmişdir. Divarları qalındır. Hamam binası düzbucaqlı formada olmaqla, iki səkkizbucaqlı zala və onlara bitişik iki köməkçi otağa bölünür. Zalları örtən sferik günbəzlər, girişdəki sadə formalı baştağ və digər xidməti otaqlar qismən dağıntıya məruz qalsalar da, hamamın daxili planı yaxşı vəziyyətdədir. Bu da hamamın ilkin quruluşunu hərtərəfli bərpa etməyə imkan verir.

Hamamın mərkəzi hissəsi yerin səviyyəsindən 1,5-2 metr dərinlikdə inşa edilmişdir. Ona görə də bura gələnlər hamama daş pillələrlə enib səkkizbucaqlı şəkildə inşa olunmuş soyunma zalına girərmişlər. Mürəkkəb formalı günbəzlə tamamlanan zalın şimal divarında soyuq aylarda zalı qızdırmaq üçün buxarı düzəldilmişdir. Bu zaldan ensiz keçidlə yuyunma salonuna daxil olurlarmış. Kənd əhalisinin məlumatına görə, zalın mərkəzində iki hovuz varmış. Hovuzların birində isti, digərində soyuq su saxlanırmış. Hamamda masajdan sonra insanlar müalicəvi əhəmiyyət daşıdığı üçün əvvəl isti, sonra isə soyuq su olan hovuza girirmiş. İki zalın arasında yerləşən köməkçi otaqların qapıları yuyunma zalına açılır. Hamamın ocaqxanası cənub hissədə yerləşir. Hamama daxil olan su saxsı borular vasitəsilə divarboyu keçərək "xəznə"də toplanır, orada qızdırılaraq xüsusi adamlar tərəfindən uzun qulplu çömçə ilə qablara doldurularaq yuyunma salonuna verilirmiş. Hamamın yuyunma salonu döşəmənin altında yerləşdirilmiş içərisindən isti hava axan saxsı borular vasitəsilə qızdırılırmış. Binanın işıqlandırılması günbəzin mərkəzində yerləşən baca və divarlarda açılmış kiçik pəncərələr vasitəsilə həyata keçirilirmiş.

Toplanmış etnoqrafik materiallara əsaslanaraq demək olar ki, XX əsrin ortalarına qədər hamamdan Yengicə kəndi ilə birlikdə ətraf kəndlərin də əhalisi istifadə etmişdir. Bu hamam da digər Şərq hamamları kimi qoyulan qaydaya uyğun olaraq həftənin müəyyən günləri kişilərə, müəyyən günləri isə qadınlara xidmət etmişdir. Hətta hamamda yaşlı müştərilər üçün ayrıca otaqlar nəzərdə tutulmuş, onların istirahəti, namaz qılması, çay içməsi, qəlyan çəkməsi üçün şərait yaradılmışdır.

Yengicə hamamı üçün maraqlı məqamlardan biri də "Bəy hamamı" mərasimidir. Yaşlı əhalinin dediyinə görə, keçmişdə bir çox adamlar hamama faytonla getməyə üstünlük verdiyi halda, toyu olan bəy yaxınları və musiqiçilərin müşayiəti ilə hamama piyada gedərmiş. Hamama gedən yolun ətrafında yerləşən evlərdə yaşayan adamlar onlara şirniyyat, meyvə, bəzi hallarda süd verərlərmiş. Bu adət qonşu kəndlərdən bəy hamamına gələn bəylər üçün daha təmtəraqlı olarmış. Bəylərin isə verilən nemətlərdən istifadə etməsi, ən azından, dadması hədiyyə verənlərə hörmət əlaməti kimi qiymətləndirilirdi və xoş qarşılanırdı. Keçən yüzilliyin sonlarından etibarən Yengicə hamamı fəaliyyətini dayandırmış, tədricən unudulmuş və müəyyən dağıntılara məruz qalmışdır. Bu səbəbdən də onun bərpa və təmirinə ehtiyac yaranmışdır.

Məlumdur ki, Naxçıvan Muxtar Respublikasında 1996-cı ildən başlanan genişmiqyaslı abadlıq və quruculuq işləri sırasında tarix-mədəniyyət abidələrinə, ümumiyyətlə, keçmiş irsə diqqət və qayğı xüsusi yer tutur. Son iyirmi il ərzində muxtar respublikada bu sahədə böyük işlər görülmüşdür. Yüksək dövlət qayğısı sayəsində muxtar respublika ərazisindəki daşınmaz tarix və mədəniyyət abidələri qeydə alınaraq pasportlaşdırılmış, çoxlu ümumiləşdirici əsərlər, monoqrafiyalar, kitablar, elmi məqalələr yazılaraq nəşr etdirilmiş, xalqımıza və beynəlxalq ictimaiyyətə çatdırılmışdır. Həmçinin zaman keçdikcə güclü aşınmaya məruz qalmış 60-dan artıq müxtəlif təyinatlı tarix-memarlıq abidəsi, o cümlədən türbələr, məscidlər, xanəgahlar, hamamlar, buzxanalar orijinallığı saxlanmaqla yüksək səviyyədə bərpa olunaraq xalqımıza qaytarılmışdır. Bu iş indi də davam etdirilməkdədir. Təkcə 2016-cı ildə Culfa rayonundakı iki abidədə – xalqımızın məğlubedilməzlik rəmzinə çevrilmiş Əlincəqalada və Şərq memarlığı incilərindən olan Gülüstan türbəsində bərpa işləri başa çatdırılmışdır. Kəngərli rayonunun Qarabağlar kəndindəki Türbə Kompleksində bərpa işləri aparılır.

*Məqsədyönlü və sistemli şəkildə aparılan bu işlər Şərur rayonunun Yengicə kəndindəki qədim hamamı da əhatə etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yengicə hamamının müasir vəziyyəti ilə yerindəcə tanış olmuş, onu memarlıq-konstruktiv cəhətdən möhtəşəm bir abidə, Azərbaycan memarlığının gözəl nümunəsi kimi dəyərləndirmişdir. Ali Məclisin Sədri sistemli tədqiqata ehtiyacı olduğunu nəzərə alaraq abidənin və ətrafının tədqiqi və hamamın bərpa olunması ilə bağlı aid təşkilatlara tapşırıqlar vermişdir. Ali Məclis Sədrinin tapşırığına əsasən AMEA Naxçıvan Bölməsində Yengicə hamamı və çevrəsində elmi tədqiqatların aparılması məqsədilə mütəxəssislərdən ibarət tədqiqat qrupu yaradılmışdır. Tədqiqat qrupu elmi-bərpa və tədqiqat işlərinin vaxtında icra olunması üçün qüvvələrini səfərbər edəcək və səylə çalışacaqdır.*

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru***

## "Xəbərlər" jurnalının bu ilə olan ilk nömrəsi işıq üzü görüb




AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çapdan çıxan "Xəbərlər" jurnalının 2017-ci ilin birinci nömrəsi işıq üzü görüb. Bölmənin sədri, akademik İsmayıl Hacıyevin baş redaktorluğu ilə ildə dörd dəfə geniş oxucu kütləsinə təqdim olunan nəşrin yeni sayı ictimai və humanitar elmlər seriyasına həsr olunub.

Jurnalın ilk bölməsində Naxçıvan ərazisindəki qədim qalalar, onların tarixi, tədqiqi və qalatipli yaşayış yerlərində tədqiqatlar zamanı əldə edilən zəngin arxeoloji materiallar işıqlandırılıb. Elmi nəşrdə ölkənin tanınmış alimləri ilə yanaşı, Azərbaycan-ABŞ Beynəlxalq arxeoloji ekspedisiyalarının tərkibində iştirak edən ABŞ-ın Cons Hopkins Universitetinin əməkdaşı Cennifer Sveridanın, Ohayo Dövlət Universitetinin əməkdaşı Selin Nugentin, Corciya Universitetinin əməkdaşı Robert Bryantın, Pensilvaniya Universitetinin əməkdaşı Susanna Fişmanın Naxçıvandakı qalalarda apardıqları tədqiqatlar ilə bağlı elmi məqalələri də dərc olunub.

"Orta Tunc dövrünün qalatipli yaşayış yerləri", "Naxçıvanın qədim müdafiə tikililəri qalatikmə mədəniyyətinin əsası kimi", "Qızqala kurqanlarının tapıntıları", "Oğlanqalada Orta Dəmir dövründə keramika istehsalı", "Alman səyyahları Naxçıvan qalaları haqqında", "Naxçıvan və İrəvan qalalarının çar Rusiyasına qarşı müqavimət hərəkatı" və sair məqalələrdə Naxçıvanın Qazançıqala, Göynükqala, Qızqala, Çalxanqala, Oğlanqala, Əlincəqala, Fərhadqala, Narınqala, Abbasabad və digər qalaları barəsində məlumatlar öz əksini tapıb.

Naxçıvanın tarixi, arxeologiyası, mədəniyyəti, incəsənəti, iqtisadi və sosial inkişafı ilə əlaqədar alim və ziyalıların müxtəlif səpkili məqalələri də yeni nömrədə özünə yer alıb.

Qeyd edək ki, jurnaldakı məqalələrdə mövzu ilə bağlı ədəbiyyat siyahısı göstərilib, eyni zamanda onların rus və ingilis dillərində xülasələri verilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

***Son illər əhalinin, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir.***

## Məktəblərdə yaz mövsümünün tibbi müayinələrinə başlanılıb

Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq hər il yaz və payız mövsümlərində tam orta məktəblərin şagirdləri arasında profilaktika xarakteri daşıyan dərin tibbi yoxlamalar aparılır. Bu tədbirlər "Uşaqların icbari dispanserizasiyası haqqında" 2013-cü il 5 mart tarixli Azərbaycan Respublikası Qanununun və ölkə Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın tələblərinə uyğun olaraq həyata keçirilir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən bu il Naxçıvan şəhərinin tam orta məktəblərindəki şagirdlər müayinə ediləcəklər. Müayinələrin normal təşkili üçün əvvəlcədən cədvəllər tərtib olunaraq məktəblərə göndərilib. Orta məktəblərdə çalışan tibb işçiləri xəstəxananın Poliklinika şöbəsinə dəvət olunub, lazımi izahatlar verilib. Şagirdlər əvvəlcədən məktəb həkimi tərəfindən müayinələrdən keçərək qruplaşdırılıb.

Dərin tibbi müayinələr aparmaq üçün oftalmoloq, stomatoloq, ortoped, ftiziatr, LOR, endokrinoloq, nevropatoloq, pediatr və digər ixtisaslı həkimlərdən ibarət briqada təşkil edilib. İlk müayinələr Naxçıvan şəhərinin 1 və 2 nömrəli tam orta məktəblərində aparılıb. Şagirdlər ixtisas həkimi tərəfindən yoxlanılıb. Oftalmoloji müayinələr nəticəsində şagirdlər arasında ən çox miopiya (yaxındangörmə), stomatoloji müayinələrdə ortodentik, digər ixtisasyönümlü müayinələrdə bəzi şagirdlərdə nitq qüsurları, konstisional piylənmə, xroniki tonzillit, adenoidlər, burun çəpərində əyriliklər, revmatizm xəstəlikləri aşkar olunub.

Əvvəlki illərdə olduğu kimi həmin şagirdlər dispanser qeydiyyatına götürülərək Mərkəzi Uşaq Xəstəxanasına dəvət olunur, daha ətraflı və dərin müayinədən keçirilir, xəstəliyi dəqiqləşdirilən şagirdlər üçün müvafiq konsultasiyalar, eləcə də lazımi müalicə tədbirləri təşkil edilir.

Muxtar respublikanın rayonlarında da şagirdlərin dərin tibbi müayinələrinə başlanılıb. Müayinələr aprelin 25-dək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Xalq artisti ilə görüş keçirilib



***Naxçıvan Musiqi Kollecində Azərbaycan Respublikasının Xalq artisti Həsən Ağasoyla görüş keçirilib.***

Tədbirdə çıxış edən Naxçıvan Musiqi Kollecinin direktoru Günay Əliyeva bildirib ki, musiqi ocağında tanınmış sənət adamları ilə görüşlərin keçirilməsi ənənəyə çevrilib. Xalq artisti Həsən Ağasoy da belə sənət adamlarındandır. Aktyorun yaratdığı rəngarəng obrazlar və personajlar onu teatrsevərlərə sevdirib. Həsən Ağasoy həm də bədii qiraət sahəsində öz ifası ilə seçilir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin aparıcı məsləhətçisi, Xalq artisti Kamran Quliyev "Xalq artistinin həyat və yaradıcılığı" mövzusunda çıxışında tanınmış aktyorun keçdiyi sənət yolundan geniş söhbət açıb. Qeyd olunub ki, 1979-cu ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirən Həsən Ağasoy həyatını Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə bağlayıb. Onun yaratdığı obrazlar həmişə canlılığı, səmimiliyi və təbiiliyi ilə yadda qalır. Aktyor Hüseyn Cavidin Naxçıvan teatrının səhnəsində tamaşaya qoyulan bütün dramlarında rol alıb, eyni zamanda 70-dək tamaşada müxtəlif xarakterli insan obrazlarını, Orxan, Simon, Əşrəf bəy, Əkrəm bəy, İblis, Keykavus kimi mürəkkəb və psixoloji rollar yaradıb.

Xalq artistinin son illərdə səhnəyə qoyulan tamaşalarda oynadığı obrazlarda daxili aləmin məharətlə açılması özünü aydın göstərir. Həsən Ağasoyun oynadığı Yedigey ("Manqurd"), Natan ("Müdrik Natan"), Mirzə Fətəli ("Mirzə Fətəli"), Böyükağa bəy ("Yəhya bəy Dilqəm"), Cavadxan ("Nadir şah"), Baba ("Arılar arasında") rolları onun xarakter ustası olduğunu göstərir.

Qeyd olunub ki, Həsən Ağasoyun əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Aktyor 1999-cu ildə Azərbaycan Respublikasının Xalq artisti fəxri adına layiq görülüb. Prezident mükafatı alıb və "Tərəqqi" medalı ilə təltif edilib.

Sonra Xalq artisti Həsən Ağasoy çıxış edərək tələbələrlə görüşdən məmnun olduğunu bildirib. Yaradıcılığı, həyat yolu haqqında maraqlı xatirələrindən söhbət açıb, sualları cavablandırıb, tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

## Muzey bələdçiləri üçün seminar-treninqlər davam etdirilir

***Muxtar respublikamızda muzey bələdçiləri üçün keçirilən seminar-treninqlər davam etdirilir. Növbəti belə tədbirlər Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Məmməd Arazın ev-muzeyində olub.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminar-treninqlərdə nazirliyin Mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Məmiyeva "Muzey bələdçisinin davranış qaydaları" mövzusunda çıxış edib. Qeyd olunub ki, ötən il muxtar respublikanın muzey şəbəkələri üçün 11 belə tədbir təşkil olunub. Bu il keçirilən tədbir isə beşincidir. Muzey bələdçiləri üçün seminar-treninqlərin keçirilməsində əsas məqsəd ekskursiya işinin təşkili ilə bağlı mövcud nöqsan və çatışmazlıqları aradan qaldırmaq, muzey bələdçilərinin nəzəri bilik və praktik bacarıq səviyyəsini yüksəltməkdir. Seminar-treninqlərdə muzey bələdçiləri vəzifə funksiyalarını dərindən öyrənməyə səy göstərməklə yanaşı, muzey işi haqqında da ətraflı məlumat alırlar.



Bildirilib ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Muzeylərimiz üçün yeni binaların inşa olunması, onların təmiri, yenidən qurulması və maddi-texniki bazasının möhkəmləndirilməsi işin səviyyəsinin yüksəldilməsinə xidmət edir. Görülən işlər muzey işçiləri qarşısında da mühüm vəzifələr qoyur. Bu gün muzeylərimizdə hazırlıqlı, bilikli, xarici dilləri bilən, işlədiyi mədəniyyət ocağı haqqında ətraflı məlumata malik bələdçilər fəaliyyət göstərir.

Diqqətə çatdırılıb ki, muzey bələdçiləri müxtəlif səviyyəli insanlarla, məktəbli və tələbələrlə, gənc, orta və yaşlı nəsillə işləməyi bacarmalı, nəzakət və davranış qaydaları, geyim tərzi, intellektual dünyagörüşü ilə muzeyə gələnlərdə xoş təəssürat yaratmalıdırlar. Muzey bələdçiləri hər bir vətəndaşa qarşı diqqət göstərməli, muzey işi və muxtar respublikadakı yeniliklərdən xəbərdar olmalı, ziyarətçilərin suallarını diqqətlə dinləyib düzgün cavablandırmalıdırlar. Bu gün muxtar respublikamıza gələn turistlərə qədim diyarımız haqqında ətraflı məlumat vermək üçün muzey bələdçisi daim öz üzərində çalışmalı, tariximizi və mədəniyyətimizi dərindən bilməlidir.

Sonra Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Məmməd Arazın ev-muzeyində muzey bələdçilərinin təqdimatında ekspozisiyaya baxış olub və ekskursiya mətni müzakirə edilib, muzey bələdçilərinə metodik tövsiyələr verilib.

**Əli RZAYEV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2017-ci ilin mart ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1107 | 78,6 | 78,8 | 100,3 |
| 2. | Şahbuz rayonu | 556 | 40,0 | 40,1 | 100,3 |
| 3. | Kəngərli rayonu | 605 | 43,0 | 43,1 | 100,2 |
| 4. | Culfa rayonu | 1107 | 78,6 | 78,7 | 100,1 |
| 5. | Babək rayonu | 2220 | 157,9 | 158,0 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 5130 | 374,5 | 374,5 | 100,0 |
| 7. | Şərur rayonu | 2002 | 142,2 | 142,2 | 100,0 |
| 8. | Sədərək rayonu | 225 | 16,0 | 16,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12693 | 1142,2 | 1044,8 | 91,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25645** | **2073,0** | **1976,2** | **95,3** |

**Qeyd:** Mart ayında texniki itki nəzərə alınmaqla daxil olan 25 milyon 645 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 73 min manat olmuş, cəmi 1 milyon 976 min 200 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 95,3 faizini təşkil edir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi basketbol üzrə muxtar respublika çempionatının yüksək və I dəstəsində növbəti turun oyunları keçirilib.***

## *"Naxçıvan"* və *"Şahbuz"* komandaları liderliklərini qoruyurlar



Naxçıvan Muxtar Respublika çempionatının yüksək dəstəsində liderlik uğrunda kəskin mübarizə gedir. Bu turda "Culfa" və "Ordubad" komandalarının üz-üzə gəlməsi daha çox "Naxçıvan" komandasının xeyrinə olub. Culfa təmsilçisi ordubadlı həmkarlarını 55:21 hesabı ilə məğlub edərək ikinci pilləyə yüksəliblər. Cari mövsümdə hələ də qələbə qazana bilməyən "Şərur" komandası yenə məğlubiyyətlə barışmalı olub. Onlar bu dəfə səfərdə "Babək" komandasına uduzublar – 22:30.

Birinci dəstədə isə "Şahbuz" komandasının məğlubedilməzlik seriyası davam edir. 6 görüşdən maksimum xal toplayan Şahbuz təmsilçisi liderliyini davam etdirir. Onlardan bir xal geridə qalan "Lokomotiv" komandası bu turda Sədərək basketbolçularını məğlub etməyi bacarıblar – 46:29. "Kəngərli" komandası isə cari mövsümdə yenə məğlubiyyətlə üzləşib. Onlar bu dəfə "Naxçıvan" Universiteti komandası qarşısında ciddi müqavimət göstərə bilməyiblər – 21:45.

*Yüksək dəstə*

| S | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | Naxçıvan | 6 | 5 | 1 | 356-246 | 11 |
| 2. | Culfa | 6 | 4 | 2 | 294-207 | 10 |
| 3. | Ordubad | 6 | 4 | 2 | 255-213 | 10 |
| 4. | Babək | 7 | 3 | 4 | 213-260 | 10 |
| 5. | Şərur | 7 | 0 | 7 | 150-342 | 7 |

*I dəstə*

| S | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | Şahbuz | 6 | 6 | 0 | 285-188 | 12 |
| 2. | Lokomotiv | 6 | 5 | 1 | 283-173 | 11 |
| 3. | Sədərək | 6 | 3 | 3 | 173-178 | 9 |
| 4. | "Naxçıvan" Universiteti | 7 | 2 | 5 | 220-239 | 9 |
| 5. | Kəngərli | 7 | 0 | 7 | 148-341 | 7 |

**Qeyd:** S – sıra, O – oyun, Q – qələbə, M – məğlubiyyət, T/F – top fərqi, X – xal.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor müavini: RAUF KƏNGƏRLİ
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 277